# İmamverdi İsmayılovun hekayəsi Türkiyə mətbuatında




Yazıçı, millət vəkili İmamverdi İsmayılovun "Bayquş və qarovulçu" hekayəsi Türkiyədə nəşr olunan, məşhur yazarların və görkəmli ədəbiyyat simalarının da imzalarının yer aldığı "Türk ədəbiyyatı aylıq fikir və sənət dərgisi"ndə işıq üzü görüb. Qeyd edək ki, bu hekayə milli mətbuatımızda, populyar ədəbi dərgilərimizdə və müxtəlif yerli saytlarımızda dəfələrlə dərc olunaraq geniş oxucu kütləsinin rəğbətini qazanıb. "Bayquş və qarovulçu" hekayəsi haqqında dəyərli imza sahibləri, akademiklər, yazıçı və ədəbiyyat tənqidçilərinin resenziyaları, analitik müəllif rəy və yazıları, dəyərli fikirləri dərc olunub.

Son zamanların ədəbi hadisəsinə çevrilən hekayə Türkiyə mətbuatının da diqqətini cəlb edib. İ.İsmayılovun "Bayquş və qarovulçu" hekayəsini türk xalqları ədəbiyyatının təəssübkeşi, Azərbaycan mədəniyyəti və ədəbiyyatına hər zaman böyük sevgi ilə yanaşan, şair və yazıçılarımızın əsərlərini türk dilinə tərcümə edən tanınmış türk şairi və yazıçısı, tərcüməçi İmdat Avşar çevirib. Hekayə Türkiyədə yüksəktirajlı və ən çox oxunan "Türk ədəbiyyatı aylıq fikir və sənət dərgisi"nin sentyabr nömrəsində qardaş oxucularımıza təqdim olunub.

525-ci qəzet. - 2025.- 1 oktyabr (№177).- S.9.